# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN İNKİŞAFINA TƏSİR EDƏN İQTİSADİ AMİLLƏR

Sevinc TALIBOVA[*]

**Xülasə:** Məqalədə 1991-ci il 18 oktyabr tarixində II müstəqillik tarixini yaşamağa başlamış Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin lüğət tərkibinə təsir edən iqtisadi amillər araşdırılmışdı. Dövlət suverenliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafının təminatçısıdır. Dövlətin mücadilələrlə qazandığı müstəqillik eyni zamanda iqtisadi güclə daha möhkəmlənir. Müstəqillik illərində Azərbaycan dilinin lüğət tərkibində iqtisadi münasibətləri bildirən anlayışlar keyfiyyət, kəmiyyətcə yeni məzmun və forma aldı. Azərbaycan Respublikasının siyasi, iqtisadi, sosial həyatının bütün sferalarında yeni transformasiya prosesi başladı. Həm dövlət, həm də millət dövlətçilik tarixinin çox mürəkkəb, qarışıq eyni zamanda da şərəfli bir dönəmini yaşamağa başladı. Sosializmdən kapitalizmə keçid ölkədaxilində və ölkəxaricində yeni iqtisadi platformanın yaradılmasını zərurətə çevirdi.

***Açar Sözlər:*** *Müstəqillik, İqtisadi Terminologiya, Dilin Lüğət Tərkibi, Ekstralinqivistik Amillər, Terminologiya.*

### Economic Factors Affecting the Development of the Vocabulary of the Azerbaijan Language During the Years of Independence

**Summary:** In the article, the economic, factors affecting the vocabulary of the Azerbaijani language, the state language of the Respublic of Azerbaijan, which began to experience the second history of independence on October 18, 1991,were investigated. State sovereignty and political freedom are the guarantors of the development of the development of the national economy.The independence gained by the state though struggles is also strengthened by economic power. During the years of independence. The concepts denoting economic relations in the vocabulary of the Azerbaijani language took a qualitative, quantitative new content and form.A new process of transformation has begun in all spheres of the political, economic social life of the Republic of Azerbaijan. Both the state and the nation began to experience a very complex, confusing and at the same time glorious period in the history of statehood. The transition from socialism to capitalism necessitsted the creation of a new economic platform at home and abroad.

***Key Words:*** *İndependence, Economic, Terminology, Vocabulary, Composition Of The Language, Extralinguistic Factors, Terminology.*

Azərbaycan dilinin tarixi qədimdir və bu qədimlilik onu daşıyan millətin tarixindən ayrılmazdır. Müstəqillik dövründə Azərbayacan dilinin inkişaf dinamikası onun digər dövrlərindən fərqlənir. Müstəqillik anlayışı bizim üçün yeni bir anlayış olmamışdır, zaman-zaman bu məhfumun şirinliyini dadmış, Şərqdə ilk Demokratik Respublikanın varisi olmaq qürurunu yaşamaqdayıq. Müstəqillik dövrü dedikdə, şərti olaraq 1991-ci il 18 oktyabr tarixindən başlayan zaman dilimi nəzərdə tutulur. Bu zaman dilimindən başlayan iqtisadi-siyasi, mədəni, sosial dəyişikliklər sözsüz ki, dilimizdən xüsusilə dilin ən dinamik layı olan lüğət tərkibindəndə yan keçməmişdir. Bildiyimiz kimi, dilin lüğət tərkibi hər bir xalqın keçmişini, bu gününü və gələcəklə bağlı düşüncələrini əhatə edən sözlərin toplusundan ibarətdir. Boşuna deməyiblər ki, dil xalqın tarixi yaşı, Humboltun təbrincə “ xalqın ruhu”dur. Yeni bərqərar olan ictimai-tarixi şəraitin birbaşa və ya dolayısı olaraq dilin lüğət tərkibinə nüfuz etməsinin labüd, qaçılmaz olması haqqında N.Xudiyev yazır “prosesin özünü nəzarət altında saxlamaq çətin olsa da, kütləvi təfəkkürdəki inqilabi dəyişiklik stixiyası belə bir nəzarətçi qüvvə kimi müəyyənləşir; inqilabi təfəkkür isə birinci növbədə leksik normada təbəddülat yaradır, çünki mədəni-tarixi şərait ictimai varlığa qneseoloji münasibətin xarakterini əsaslı şəkildə dəyişdirmişdi- ona görə də leksik-semantik sistemin yenidən təşkili idraki zərurət idi” (Xudiyev, 2013: 51).

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Azərbaycan dilinin işlənmə arealı genişlənmiş, “azad nəfəs “ alması üçün şərait yaranmışdır. Azərbaycan ədəbi dili müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət dili oldu. Bununla da, Azərbaycan dili yalnız məişət danışıq dilinin, ədəbi və elmi yazıların dili deyil, bütünlüklə ictimai həyatın bütün sahələrinin dili funksiyasını yerinə yetirməyə başladı. Bu dövr eyni zamanda ictimai-

[*] Müəllim, Bakı Avrasiya Universiteti, Sevinc.talibova.2016@mail.ru ORCİD: 0009-0009-8415-0447.

DOI :10.30546/100981.2024.01102

siyası və iqtisadi hadisələrin rəngarəngliyi, dinamikliyi ilə əvvəlki dövrlərdən kəskin fərqlənirdi. İstənilən halda, istər rəsmi dövlət dili statusu daşıdığı , istərsə də bu funksiyadan məhrum olduğu zamanlarda Azərbaycan dili öz vəzifəsini, ünsiyyət funksiyasını yerinə yetirmişdir. Uzun bir inkişaf dövrü keçirən obrazlı desək "başı bəlalı" dilimiz müstəqilliyimizin yenidən bərpası ilə qol-qanad açdı, real zənginləşmə imkanları qazandı, işləklik dairəsi genişləndi. Biz burada işləklik ifadəsini boşuna istifadə etmədik. Çünki, artıq formalaşmış, fonetik, qrammatik, sintaktik strukturlu dilin inkişafından çox işləklik, istifadəlilik xüsusiyyətinə nəzər salamğı lazım bilirik. Türk dil-tədqiqatçısı Kamilə İmer dildə inkişaf və yenilənmə, dəyişmə anlayışlarını fərqləndirərək yazır: "Dəyişiklik termini dildə təbii olaraq baş verən səs, quruluş, sintaksis və məna dəyişikliklərini ehtiva edir. İnkişaf yeni anlayışların meydana çıxması, köhnələrin yoxa çıxması, yeni yerli və xarici elementlərin meydana gəlməsi ilə dilin lüğət tərkibindəki dəyişikliklərdir" (İmer, 127:12).

Azərbaycan dilinin inkişaf tarixinin ayrı-ayrı dövrləri sistemli şəkildə öyrənilməkdədir. Aparılan tədqiqatlara nəzər saldıqda, məlum olur ki, dilin inkişaf tarixininn hər bir dövrü özünəməxsus tarixi-ictimai, iqtisadi-sosial, mədəni müxtəlifliyi ilə səciyyələnib. Məhz müstəqillik illərində Azərbaycan dilinin strukturunda dəyişmə deyil lüğət tərkibində yenilənmə hadisəsi ilə müşahidə edilir. Sözsüz ki, bu yenilənmə, inkişaf dilə gətirilən yeni sözlə, söz birləşmələri, ifadələr hesabına baş verməkdədir. Dildə yeni söz "özbaşına" yarana bilmədiyi kimi, yeni sözlərin lüğət tərkibinə daxil olması hadisəsi də cəmiyyətdə baş verən siyasi, iqtisadi, sosial amillərlə bağlı olub, elmi-texniki tərəqqi, tarixi-ictimai hadisələrin fonunda baş verir. Dil ictimai hadisə olduğuna görə dəyişməyə məcburdur. İctimai həyatda baş verən bütün proseslər dildə öz əksini tapır. Dil həm daxili, həm də xarici faktorların ictimai-siyasi, mədəni amillərin təsirinə məruz qalır. Nəticədə, kəmiyyət və keyfiyyət baxımından dəyişir. Bu dəyişiklik özünü ən çox dilin leksik yarusunda göstərir. Dilin lüğət tərkibi dilin dəyişməsi və inkişaf göstəricisi baxımından barometr rolunu oynayır. Xüsusilə, fonetik, qrammatik leksik normalaşma prosesini başa çatdırmış istənilən bir dilin sonrakı inkişaf dinamikası dilin öz imkanları hesabına yaranmış və ya alınmalar vasitəsilə dilə daxil olan sözlərin keyfiyyəti və intensivliyi ilə səciyyələndirilir.

Lüğət tərkibinin təsirlərə məruz qalması və ya yeni sözlərlə zənginləşməsi ədəbi dilin inkişafının bütün dövrlərində baş vermişdir. İstənilən dilin leksikologiyası dilin ən dinamik səviyyəsi sayılır. Cəmiyyətdə baş verən bütün hadisələr birbaşa və dolayı yolla, müsbət və ya mənfi çalarlarla dilə öz təsirini göstərir. "Dilin yaranma tarixi insanın əmək fəaliyyəti ilə bağlıdır. Dildə olan sözlərin yaranması, inkişafı və dəyişməsinin bir sıra xüsusiyyətləri vardır. Dil istinasız olaraq insanın hər cür fəaliyyəti ilə bağlıdır. Buna görə də dilin lüğət tərkibinin əbədi inkişafda olması, müxtəlif dəyişikliklərə məruz qalması son dərəcədə labüddür. Belə ki, cəmiyyətin inkişafı nəticəsində yeni söz yaranır, bir sıra söz və ifadələr isə köhnəlib dili tərk edir. Sanki dərin dərya və ümmanlarda olduğu kimi, dildə də "daxili təmizləmə" prosesi gedir, dil cilalanır, təkmilləşir." (Mirzəliyeva, 2004: 67).

Bəşəriyyətin yaradışılından bu günə kimi insanlar müxtəlif ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm və sosializm kimi ayrı-ayrı qurluşlarda, iqtisadi formasiyalarda yaşamışdılar. Bildiyimiz kimi, bir-birini əvəz edən, insanlıq tarixində həlledici dönüş nöqtələri olan bu formasiyaların əsasını iqtisadi münasibətlər, inkişaf, sıçrayışlar təşkil edir və həlledici, müəyyənedici təsir mexanizminə malik olmuşdur. "İqtisadiyyat insan həyatı üçün zəruri olan maddi nemətlərin istehsal sahələrinin və xidmətlərinin məcmusudur" (Hüseynova, 2011:36). Hər bir yeni mərhələ özü ilə yeni məhfumlar, anlayışlar gətirir ki, bunlarda dilə yeni sözlər kimi daxil olubdur. Buna görə də iqtisadi terminologiya həssas, dinamikdir. Terminoloji leksikaya nəzər yetirdikdə, aydın olur ki, arxaikləşmiş, köhnəlmiş terminlərin çox hissəsi iqtisadi terminlərdir.

Azərbaycan dilinin inkişafının bütün dövrlərində olduğu kimi müstəqillik illərində də Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsinə təsir edən başlıca

amillərdən biri də iqtisadi amillər olmuşdur. Müasir Azərbaycan dilinin inkişaf tarixinə nəzər saldıqda aydın olur ki, yeni ictimai-siyasi və iqtisadi proseslər həm məzmununa, həm də formasına görə əvvəlki illərdən tamamilə fərqlənir. Dövlətin həyatının bütün sferalarında transformasiya başlayır. Güclü dövlət, güclü, yenilənmiş iqtisadiyyat tələb edirdi. Təbii ki, bu yenilənmə birdən-birə baş verməyəcəkdir. İlk 10 il iqtisadi-siyasi islahatların aparılması, yerli iqtisadiyyatın dirçəldilməsi, keçid dövrünün çətinliklərini minuma endirmək, əhalinin sosial həyatını yaxşılaşdırmaq, mümkün qədər xarici investisiya cəlb etmək, dünya iqtisadi bazarına qoşulmaq, milli valuyuta sistemini yaratmaq və s. kimi vacib məsələlərin həlli nəzərdə tutulmuşdur. İqtisadi amillərin Azərbaycan dilinin lüğət tərkibinə təsiri ayrı-ayrı illərdə fərqli olmuşdu. 199O-ci illərdən başlayarq ölkədə davamlı və sistemli iqtisadi islahatlar aparmaq dövlət siyasətinin başlıca piroritet məsələsinə çevrildi. Eyni zamanda iqtisadiyyatın müxtəlif sahələrində mövcud vəziyyəti düzəltmək üçün lazım olan zəruri addımlar atıldı.

1992-ci ildə Dünya Bankı və Beynəlxalq Valyuta Fonduna qoşulmuşdu. 1994-2024-cü illəri əhatə edən dünyanın 8 ölkəsini (Azərbaycan,ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistan) təmsil edən 11 şirkətlə (Amoco, BP, MCDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) "Əsrin müqaviləsi" imzalandı, bu dünya neft bazarına çıxışı təmin etdi və bununla neft strategiyasının əsası qoyuldu. 1999-cu ildə isə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradıldı (ARDNT).

1996-ci il "Torpaq islahatı haqqında Qanun" xüsusi mülkiyyətin, fərdi sahibkarlığın yaranmasının əsasını qoydu.

Azərbaycan dilinin lüğət tərkibində ən aktiv söz qrupu olan iqtisadi terminologiyanın inkişaf tarixinə nəzər saldıqda dilin daxili imkanları hesabına yeni terminlərin yarandığının şahidi oluruq.

İqtisadi təşkilatlar: Müstəqil Dövlətlər Birliyi, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Şimali Atlantika Müqaviləsi Təşkilatı, Dünya İqtisadi Forumu, Ümumdünya Ticarət Təşkilatı və s.

1. Tərəfdaş olduğu qurumlar: Asiya İnkişaf Bankı, Birləşmiş Millətlər Təşkilatının Proqramı, Almaniya İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi, BMT-nin Ərzaq və Kənd Təsəərrüfatı Təşkilatı, İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi, türk Əməkdaşlıq və Koordinasiya Agentliyi, Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu, ABŞ-ın Energetika Departamenti, ABŞ-ın Dövlət Departamenti, Qlobal Ekologiya Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaşıl İqlim Fondu

2. Beynəlxalq və regional təşkilatlar: Beynəlxalq və regional iqtisadi təşkilatların adlarını bildirənlər. "Asiya İnkişaf Bankı", " Avropa İnvestisiya Bankı", "İslam Konfransı Təşkilatı", "Körfəz ərəb Ölkələri Əməkdaşlığı Təşkilatı", " Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu", " Beynəlxalq Ticarət Mərkəzi", "Ərəb Valyuta Fondu", "Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyi", "Şərqi karib Dövlətləri Təşkilatı".

1. Beynəlxalq iqtisadi münasibətlərdə müxtəlif məfhum və anlayışları ifadə edən terminlər. Beynəlxalq auksionların keçirilməsi mərhələləri, beynəlxalq bazar, beynəlxalq birja dövriyyəsi, beynəlxalq biznesin növləri, beynəlxalq əmək bölgüsü, beynəlxalq əmtəə birjaları, beynəlxalq əmtəəə hərracları, beynəlxalq icarənin növləri, beynəlxalq hesablaşmalar, beynəlxalq valyuta münasibətləri, beynəlxalq valyuta resursları

2. Bank fəaliyyətində istifadə olunan iqtisadiyyat terminləri. "Avropa Korporasiyasının Assosiasiyalaşdırılmış Bankları", açıq bazar, agent-bank, ağıllı kart, aksept evi, aksept krediti, akseptant bank, səhmdar bankı, təxsisat bankı, jirobank, torpaq bankı,

investisiya bankı, ipoteka bankı, kommersiya bankı, mübadilə bankı, milli bank, sənaye bankı, əmanət bankı

3. İqtisadi təlim və nəzəriyyələrinin adlarını bildirən terminlər. Antaqonizmlər nəzəriyyəsi, artan uyğunluq, artıq tələb nəzəriyyəsi, iqtisadi nəzəriyyə, iqtisadi silsilə fazaları, riyazi iqtisadiyyat, keçid iqtisadiyyatı

4. Vergi və rüsümlarla bağlı iqtisadiyyat terminləri. Adambaşı vergi, advalor rüsumlar, akkord vergiləri, antidempinq rüsumu, artıq vergi yükü, avtomobil vergisi, birbaşa vergilər, birdəfəlik vergilər, birja rüsumu, bölüşdürülməmiş mənfəətdən vergi, büdcə-vergi siyasəti, vergi bəyannaməsi, vergi fərqi, vergi məcəlləsi, aksiz vergi, ümumi vergi, qlobal vergi, idxal vergisi, torpaq vergisi, mənzil vergisi

5. İqtisadiyyatın planlaşdırılması ilə bağlı terminlər. Planlaşma, proqnozlaşma imkanı, illik plan, illik istehsal planı, yük daşınma planı, əmək haqqı planı, İmperativ plan, optimal imperativ, perspektiv plan, istehsal-maliyyə planı, sənaye istehsalı planı, təchizat planı

6. Sığorta fəaliyyəti ilə bağlı iqtisadiyyat terminləri. Birdəfəlik sığorta haqqı, birja əməliyyatlarının sığortalanması, sığorta xidmətləri bazarı, sığorta dövrü, sığorta qiyməti, sığorta zərəri, sığortalanmayan risklər, sığortanın yerləşdirilməsi, sığorta əməliyyatlarının rentabelliyi

7. İqtisadiyyatın maliyyə-kredit sahəsi ilə əlaqədar olan terminlər. Maliyyə-kredit institutları, maliyyə blokadası, maliyyə alətləri, maliyyə borc öhdəliyi, maliyyə innovasiyaları, kredit, kredit artıqlığı, kredit çeki, gəlir səmərəsi, gəli və xərclərin tarazlığı qiyməti

8. İstehsal və istehlak prosesi ilə bağlı iqtisadiyyat terminləri. İstehlak bazarı. İstehlak dəyəri, istehlak əmtəə və xidmətləri, istehlak funksiyası, istehlak kooperativi, istehlak krediti, istehlak nəzəriyyəsi, istehsal xərcləri, istehsal amilləri, istehsal ehtiyatları, istehsal funksiyası, istehsal potensialı, istehsal tullantıları, istehsal strukturu, istehsal vasitələri, avtomatlaşdırılmış istehsal, plansız istehsal. Sənaye istehsalı, fərdi istehsal, konveyerli istehsal, kooperativləşdirilmiş istehsal, çoxsahəli istehsal

9. Ticarət və xidmət sahələri ilə bağlı iqtisadiyyat terminləri. Elektron ticarət terminalı, ticarət akkreditivi, ticarət avtomatı. Ticarət azadlığı, ticarət balansı, ticarət firmaları, ticarət reyestri, ticarət terminləri, ticarət zalı, alış qiyməti, alqı-satqı müqaviləsi, alqı üzrə stop tapşırığı, iş qüvvəsinin alqısı, iş qüvvəsinin alqı-satqısı (Quliyeva, 2015: 68)

Qloballaşmanın bütün sferalara təsir etdiyi bu zaman dilimində insanların iş həyatlarında, eləcə də gündəlik fəaliyyətlərində ölkədə və dünyada baş verən iqtisadi proseslərin bir parçası olmasını zərurətə çevirdi. Məhz bu səbəbdən iqtisadi terminlər yalnız bu sahə mütəxəsislərinin deyil, sadə insanların da lüğət fondunun əsas hissəsini təşkil etməyə başlamışdır.

## ƏDƏBİYYAT

Xudiyev,N.(2013), “Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı(Sovet dövrü)”, Bakı: Elm və Təhsil.

Mirzəliyeva, M.(2004), “Dilin lüğət tərkibi. Təşəkkül, inkişaf və təkmilləşmə. Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri”, Bakı: Kitab aləmi.

Hüseynova, J.(2011), “İqtisadiyyat terminlərinin linqvistik təhlili”, nam.dis.

Quliyeva, Ə.(2015), “Müasir Türk və Azərbaycan dillərində iqtisadiyyat terminləri” nam. Dis.

Kamile, İ. “Dildə gelişmə və dəyişmə açısından Türk dil devrimi” Ankara: Türk Dil Kurumları Yayını.